# Xətayi yaradıcılığının terminoloji təsəvvüf mündəricəsi

**Şöhrət Bədəlov**
*filologiya üzrə fəlsəfə doktoru,*
*ADPU*
**E-mail:** dilchilik2001@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., dos.R.O. Qafarlı,
filol.ü.f.d., dos.A.X. Ramazanova

**Açar sözlər:** Quran, Xətayi, sufizm, poeziya, simvol
**Ключевые слова:** Коран, Хатаи, суфизм, поэзия, символ
**Key words:** Koran, Hatai, sufism, poetry, symbol

Xətayi poeziyasının təsəvvüf mündəricəsi özünün bir sıra səciyyəvi cəhətləri ilə özündən əvvəl və daha sonrakı dövr irfan şairlərinin yaradıcılığından fərqli olan prinsipləri ilə diqqəti cəlb edə bilir. Belə ki, ümumi təsəvvüf poetizmi heç də konkret təsnifat bölümləri ilə deyil, əksinə, elmi - imamiyyə çağlarının ilkin mərhələlərində özünün klassik ezoterika ənənələrindəki «Qummir», «Summir», «Hummir», «Cummir» və «Şummir» mərifət təsnifatları ilə bəlli olan tarixi ənənələr səciyyəsinə malik idi.

Azərbaycanın görkəmli şairi Xətayinin yaradıcılığının terminoloji təsəvvüf mündəricəsini geniş poetik materiallar əsasında öyrənilməsi əsas məqsəd hesab olunur. Bu baxımdan təsəvvüf şeir şərhlərinin klassik alimlərindən hesab edilən Şeyx Mürtəza Ənsari özünün «Favaidul usul və huvə rəsail» kimi şərqin irfan ədəbiyyatı abidəsi olmaqla xüsusi qiymətə malik əsərində bütünlüklə həm «Qummir», həm «Summir», həm «Hummir», «Şummir» və eləcə də «Cummir» kimi möhtəşəm irfani təsəvvüf mündəricəsi ilə bəlli olan elmi-nəzəri kitabəsində bu anlayışların analitikasını təqdim etmişdir. Bu baxımdan funksional irfan mərifət bölümlərinin terminoloji sistem təqdimatları da məhz Şeyx Mürtəza Ənsariyə məxsusdur

Əslində, özünün ilkin nəzəri prinsiplərini «Peyğəmbər bülbüləsi» adı ilə bəlli olan abidədən ehtiva etmiş həmin beş kitabə «Qızılbaşlar»ın mərifət fəlsəfəsinin «Lima turid» «Fadal biha» «Şadal məal» «Mucəlləm» «İşdad» «İfdal» kimi nəzəri konseptuallığı ilə irfan tarixinə düşmüş monomental nəzəri terminologiyasını intişar etdirmiş oldu. Bu baxımdan elmi - irfan ədəbiyyatında Molla Sədraya məxsus olan «Şərqin təsəvvüf tarixində ifdal çomağını əlinə ala bilən yeganə şəxs fəqət Şah Xətayi oldu» deyimi də fikrimizin elmi əsasını ehtiva mənada xüsusi əhəmiyyət kəsb edə bilir. Qızılbaşların yaradıcılıq üslubunun başlıca keyfiyyətlərindən biri də təsəvvüf üzərində çox dayanmadan, əsasən «mucəlləm» anlayışlarının mərifət zənginliyini tərənnüm etməklə əqaidi - irfan ezoterizminin hermenevtika mətləblərini qabartmaq idi. Məhz bu xüsusiyyətlər qızılbaşlığı başqa mərifətlərdən ayırır, Şeyx Syutinin təbirincə ifadə etsək, onları «irfanın qibləsinə» çevirirdi. Böyük irfan alimi özünün məşhur «İstehsaluş - şeir ələ mövduatini» əsərində bu xüsusiyyətləri bəlağət mündəricəsi ilə tərənnüm edərək yazırdı: «Mücəlləm mərifəti ilə yoğrulmuş qızılbaş irfanı elə bir bülbül nəğməsinə çevrilmişdir ki, bu sətrlərdən törəyən sevgi şeirinin müqabilində kişilər diz çökər, qadınlar isə göz yaşı axıdardı». (7) Xətayi yaradıcılığında özünün daha geniş əhatə dairəsi ilə nəzərə çarpan «Mücəlləm» anlayışı «Qurani - Kərim»in «Ənbiya» surəsinin iyirmi iki və iyirmi üçüncü ayələrində öz əksini

tapmışdır. «Mücəlləm» lüğəvi mənada gizlində olan bəsit məsələni aşikarda mürəkkəb məsələyə çevirməkdir. İrfanşünaslıqda bir termin olmaqla kifayət qədər çevik işlək dairəsi ilə seçilən «mücəlləm» lüğəvi anlamından daha dərin mənalar ezoterizmi ilə də diqqəti cəlb edir. Belə ki, irfan mətnşünaslığında ədədi silsilədən rəmzi silsiləyə zehni yolla keçid almaq anlayışına mücəlləm deyilir (7). Xətayi yaradıcılığının irfan əxlaqında saqif mərifəti kimi və əsasən daha zəngin poetik məndəricə ilə diqqəti cəlb edən irfani anlayışlardan olmaqla «Şəmsiyyə» mərifəti əhatəli şəkildə özünü nümayiş etdirə bilir. Klassik təsəvvüf fikir tarixində bu mövzu dar çərçivədə öz əhatə dairəsini tapmağına baxmayaraq, irfani mərifət anlamlarına görə incə səciyyəviliyi ilə diqqəti cəlb edir. Belə ki, «Şəmsiyyə» təkkə və zaviyyələrə aid olan məsələ deyil. Bu mərifət anlayışına görə xüsusi ilə ruhu deyil, cismi ruhani məndəricədə tərbiyənin irfan əxlaqıdır. Təsəvvüf trixində demək olar ki, əsasən Şeyx Tustəriyə məxsus olan şeiriyyətdə şəmsiyyə mərifəti Xətayi yaradıcılığında özünün praktik səciyyəsi ilə aydın şəkildə diqqəti cəlb edə bilir. İrəlidə qeyd etdiyimizə rəğmən - Şeyx Tustəri Şah İsmayılın şeiriyyət müəllimi olmuşdur. Məhz şəmsiyyə əxlaqının təzahürləri Xətayi qələmində bu məna anlamlarının aydınlığı ilə diqqəti cəlb edə bilir:

Sirri kəşf et fitridən afaqun olsun sənin,
Seyr edər aləmdə zərr, şəmsiyyədir əsl tənin.

Qeyd etmək lazımdır ki, «Şəmsiyyə» anlayışı özünün «istebrac» mərifətinə görə daha dərin ezoterik səciyyə anlamları ilə diqqəti cəlb edə bilir. Belə ki, Xətayi yaradıcılığında bu anlayış daha geniş məna dərinliyi ilə nəzərə çarpa bilir. Bəlağət elmində şəmsiyyə mövzusu onun predmetlərindən sayılmır. Amma, təsəvvüfdə şəmsiyyə mərifətinə yetişmiş ariflərin bütün misraları onun ruhundakı fitri sirrlərin şölələridir. Bu mərifət anlamlarının irfanca məntiqi ifadəsi «istebrac» istilahi deyimi ilə qəliblənir ki, bu da tarixi zənginlik batiniyyəti ilə «Qurani - Kərim»də «Yasin» surəsi otuz səkkizinci ayə, «Ərrəhman» surəsi beşinci ayə və «Şəms» surəsinin birinci ayəsindəki ezoterik hermenevtizmlə bağlıdır. Klassik şərq ədəbiyyatında «istebrac» mərifətinə münasibət batini təsnifatla diqqəti cəlb edir. Belə ki, «Qummir» ardıcılları «istebrac»ı «Lima - Turid»dən, «Summir» ardıcılları isə «Ulfətul - Kulmiyyə»dən hesab edirdilər. Xətayi isə «Hummir» ardıcıllarından olduğu üçün bu məsələni tamamilə fərqli yöndən «İştad»dan hesab edirdi. Xətayinin hər bir beytində mərifət «Qummir»dən gəlsə də, əksinə, səciyyəvi baxımdan «Məntiqi - bülbülə»sində bütün mənbələr «Hummir» əsasında qisimlərə bölünmüşdür. Qeyd etmək lazımdır ki, əsas mərifət istiqamətləri isə daha çox «Şadal - məal» ezoterizmi ilə diqqəti cəlb edir. «Şadal - məal» anlayışı təsəvvüf poeziyası tarixində əsasən Xətayi yaradıclığına məxsus olan anlayışdır. Bu irfani mərifət «Qurani-Kərim»in «Qələm» surəsindəki birinci və ikinci ayələrin batiniyyətini özündə ehtiva etməsi ilə səciyyəvidir. Qeyd etmək lazımdır ki, «Şadal - məal» barədə irfani analitika daha çox Molla Yəhyanın «Təbəqatul hikmət» və Şeyx Cəvahirin «Fəlsəfətul - məntiq» əsərlərində özünü təzahür etdirə bilir. Nəzərə almaq lazımdır ki, Xətayinin «Qurani - Kərim» üzrə müəllimi Səbzəvəri təsəvvüf və irfan elmlərinin kamil bilicisi olaraq bu mətləbləri hələ ilk gənclik yaşlarından Xətayiyə öyrətmişdir. Bunu da qeyd etmək lazımdır ki, «Şadal - məal» mərifətinə ezoterik yol məhz «Lima - turid»dən təzahürləri ilə diqqəti cəlb edir. Qeyd etmək yerinə düşər ki, əksər qədim dövr irfan təhqiqatçıları bu anlayışa məxsusi olaraq bəhs açmaqla, məsələnin elmi mahiyyətinə nüfuz etmənin vacibliyini vurğulamışdılar. Belə ki, Şeyx Muhəmməd ibn Cərir Təbəri kimi böyük alimlər «Lima - turid» barədə geniş bəhs açmağı zəruri saymışlar: «...Bu ayə maddi varlıqların ehtiva mövzusundan çox ali olan

mənəvi aləmlərin mövzusu daxilindədir. Ona görə bu ayəni irfan və təsəvvüf alimləri eşq aləmində qiblə seçmişdilər. Bu mərifətin «Lima Turid» adlanmasının səbəbi isə bu ayənin möhtəvasında on yeddi mövzunun əhatə olunmasıdır: 1.məhəbbət 2. eşq 3.təvazö 4.mənəvi yaxınlıq 5.hidayət 6.sübut 7.əhkam 8. cövhər 9.maddi varlıq 10. mənəvi varlıq 11.bənzərsizlik 12. misal 13. vidati - səbəb 14. rizayəti - həqiqi 15.ixlas 16.meraci - idraki 17. təsbiti - vücud. «Fadal biha» isə özündə ehtiva etdiyi altı mərifəti – 1.Huzurul - hazirın, 2.Dəfi - aləm, 3.Suluki - idraki, 4. Vəqtil - muhit, 5.Mərufətul - zərrə və Fitrətul - qiyas anlayışlarını əhatə edir. (7,3)

Bizim araşdırmalarda ilk dəfə olaraq tədiqiqata cəlb olunan Xətayinin beş divanı - «Talibul - Eşq», «Həqiqətul - Mənaz», «Əs - suhuf», «Əl-Behişt» və «Merac» divanları ən qədim irfan abidələri olmaqla Azərbaycan xətayişünaslığına fərqli baxış və Azərbaycan təsəvvüf ədəbiyyatı tarixinin öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir. Üç böyük irfan abidəsini özündə ehtiva edən «Talibul eşq» divanı «Şəriəti - Bülbülə»,«Hikməti Bülbülə» və «Məntiqi bülbülə» kimi müstəqil mərifət səciyyələrini özündə birləşdirmiş zəngin əhatə dairəsi ilə seçilən mükəmməl irfan abidəsidir. Xətayi 1509-cu ildə başladığı bu divanı ömrünün sonuna qədər yazmışdır. Digər Xətayi divanlarından fərqli olaraq «Talibul eşq» öz mərifət səciyyəsini «Qummir», «Hummir», «Summir» və «Cummir» kitabələrindən ehtiva etmişdir. İlk babları Muğanda qələmə alınmış bu divan mərifət və hikmət səciyyələrini «Qurani-Kərim», «Nəhcul bəlağə» və Peyğəmbər hədislərindən götürmüşdür. Bütün bu xüsusiyyətlərə əsasən belə qənaətə gəlmək mümkündür ki, Xətayinin təsəvvüf dünyagörüşü irfanşünaslıq tarixinin ən qədim elmi-nəzəri prinsiplərini özündə ehtiva etməklə, sistemli poetik düşüncə tərzinin Azərbaycan klassik poeziyasının Şərqin ədəbiyyat tarixində xüsusi tarixi ədəbi mərhələsidir. Nəzərə almaq lazımdır ki, «Talibul eşq» divanı Azərbaycan xətayişünaslığında ilk dəfə bizim tədqiqatımızda elmi təhlilə cəlb olunmasına baxmayaraq, ərəbdilli təsəvvüf məzmunlu tədqiqatlarda özünün geniş elmi təhlil əhatə dairəsinə görə müxtəlif irfani mərifət araşdırmaları baxımından bəlli səciyyəvi analitikası ilə diqqəti cəlb edə bilir. Bu mənada bu divan ümumən təsəvvüfün mövzu məzmunundakı elmi-nəzəri baxışların sistemli əhatəsinə görə çevik mərifət zənginliyi bəlli faktorallığa malikdir. Nəzərə almaq lazımdır ki, Xətayi yaradıcılığının başlıca səciyyəvi xüsusiyyətləri olan irfan və təsəvvüf məzmunu özünün mərifət istinadlarına görə risalət, nübüvvət, elmi-imamiyyə və eləcə də «Qurani-Kərim»in bəyani təzahürlərinə rəğmən ezoterik tarixiliyi baxımından ciddi elmi analitik düşüncə tərzinin qədim abidəsi hesab olunmaqla, əslində, çox böyük ictimai təbəddülatlar mərhələsinə görə digər dini abidələrdən - «Tövrat», «Zəbur», «İncil» və bu sıradan əksər dini kitabələrdən daha çox özünün orijinallıq səciyyəsini qoruyub saxlaya bilməsi ilə də diqqəti cəlb edir.

Beləliklə, müəyyən etmək olar ki, qədim dövrün «Qurani-Kərim» epoxasına qədər əksər dini abidələrin məzmun və quruluş xüsusiyyətləri müxtəlif təhrif və dəyişikliklərə məruz qalmasından fərqli olaraq «Qurani-Kərim»in mətn mükəmməlliyi danılmaz tarixi həqiqət səciyyəviliyinə görə mətnşünaslıq tarixinin ən bariz nümunələrindən hesab olunması ilə də diqqəti cəlb edə bilir.

**Məqalənin aktuallığı.** Məqalənin aktuallığı Azərbaycanın görkəmli şairi Xətayinin yaradıcılığının terminoloji təsəvvüf məzmununu geniş poetik materiallar əsasında öyrənilməsindən ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq Xətayi yaradıcılığının terminoloji təsəvvür məzmunu onun yaradıcılığının ən bariz nümunələri əsasında öyrənilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ali məktəblərin filologiya

fakültələrində sufizmin və irfan fəlsəfəsinin, habelə Azərbaycan ədəbiyyatı tarixinin, xüsusilə Xətayi yaradıcılığının tədrisi zamanı müəllim, tələbələr tərəfindən istifadə oluna bilər.